*"Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır".*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 13 avqust 2014-cü il | № 62 (1879) | Qiyməti 25 qəpik

## Türkiyə Respublikasının Baş naziri Zati-aliləri cənab Rəcəb Tayyib Ərdoğana

Hörmətli cənab Baş nazir,

Əziz Qardaşım,

Türkiyənin tarixində ilk dəfə ümumxalq səsverməsi yolu ilə keçirilən Prezident seçkilərində qazandığınız parlaq qələbə münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm. Heç şübhə yoxdur ki, bu seçkilər qardaş Türkiyənin tarixində yeni mərhələnin başlanğıcı olacaqdır.

Birbaşa səsvermənin nəticəsi xalqın Sizə olan böyük inam və etimadının aşkar təzahürü, qardaş Türkiyənin hərtərəfli inkişafı və çiçəklənməsi yolunda həyata keçirdiyiniz uğurlu siyasətə və əvəzsiz xidmətlərinizə verilən yüksək qiymətdir. Cəmiyyətin demokratik inkişafı yolunda tarixi hadisə olan, açıq, sərbəst və şəffaf şəraitdə keçirilən bu seçkilər, eyni zamanda, qardaş Türkiyə xalqının iradəsinin bariz ifadəsidir. Bu qələbəniz həmçinin Türkiyənin qələbəsidir.

Məmnunluqla qeyd etmək istəyirəm ki, son on il ərzində Türkiyə hərtərəfli inkişaf nümayiş etdirərək beynəlxalq aləmdə güc mərkəzinə çevrilmişdir. Azərbaycan və Türkiyə arasında əməkdaşlıq münasibətləri isə bu müddət ərzində möhtəşəm yol keçərək möhkəm dostluq və qardaşlıq, strateji tərəfdaşlıq və müttəfiqlik səviyyəsinə yüksəlmişdir.

Uğurlu ikitərəfli və çoxtərəfli əməkdaşlığımız, birgə səylərimizlə həyata keçirdiyimiz nəhəng layihələr - Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, tikilməkdə olan Bakı-Tbilisi-Qars dəmir yol xətti və yenicə başladığımız TANAP və digərləri ölkələrimizin, eləcə də regionun dünya miqyasında əhəmiyyətini artırır, bölgədə sülhə, əməkdaşlığa və inkişafa xidmət edir.

Əminəm ki, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətləri bundan sonra da davam edəcək və inkişaf edəcəkdir.

Əziz Qardaşım, fürsətdən istifadə edərək Sizi münasib bildiyiniz vaxtda Azərbaycana səfərə dəvət edirəm. Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Türkiyənin çiçəklənməsi, xalqınızın isə əmin-amanlığı və firavanlığı naminə ali dövlətçilik fəaliyyətinizdə uğurlar diləyirəm.

**Hörmətlə,**
**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, 11 avqust 2014-cü il.

## Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təsis edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələrinin sosial müdafiəsini gücləndirmək məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri (valideynləri, dul arvadı) üçün ayda 200 (iki yüz) manat məbləğində Azərbaycan Respublikası Prezidentinin təqaüdü təsis edilsin.

2. Bu Fərmanın 1-ci hissəsi ilə təsis edilən təqaüd hər ilin dövlət büdcəsində sosial müdafiə xərcləri üçün nəzərdə tutulan vəsait hesabına, həmin hərbi qulluqçuların ailə üzvlərinin (valideynləri, dul arvadı) sayına bərabər bölünməklə, Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən ödənilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Əfqanıstanda sovet qoşunlarının tərkibində beynəlmiləl borcunu yerinə yetirərkən həlak olan, itkin düşmüş və məhkəmə qaydasında ölmüş elan edilən hərbi qulluqçuların ailələri üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təyin olunması və ödənilməsi qaydasını bir ay müddətində hazırlayıb təsdiq etsin;

3.2. Bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

4. Bu Fərman 2015-ci il yanvarın 1-dən qüvvəyə minir.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, 11 avqust 2014-cü il.

# Azərbaycan Prezidenti İlham Əliyev Serbiyanın Müdafiə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 12-də Serbiya Respublikasının Müdafiə naziri Bratislav Qaşiçin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

Azərbaycan ilə Serbiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə inkişafının yaxşı səviyyədə olduğunu vurğulayan dövlətimizin başçısı bu əlaqələrin genişləndirilməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. Ölkələrimiz arasında əlaqələrin müdafiə sahəsində inkişafı məsələsinə toxunan Prezident İlham Əliyev bu istiqamətdə də əməkdaşlığın perspektivləri ilə bağlı aparılan müzakirələrin əhəmiyyətini diqqətə çatdırdı.

Serbiyanın Müdafiə naziri Bratislav Qaşiç dedi: "Cənab Prezident, Sizinlə - Serbiyanın böyük dostlarından biri ilə görüşməkdən məmnunluq hissi keçirirəm". Nazir Serbiya Prezidenti Tomislav Nikoliçin və Baş nazir Aleksandr Vuçiçin salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycan ilə Serbiya arasında münasibətlərin inkişafına toxunan B.Qaşiç ölkələrimiz arasında ikitərəfli əlaqələrin heç vaxt indiki kimi yüksək səviyyədə olmadığını vurğuladı. O, Azərbaycan ilə Serbiya arasında münasibətlərin gələcəkdə də uğurla inkişaf etdiriləcəyinə ümidvar olduğunu bildirdi.

Dövlətimizin başçısı Serbiya Prezidenti Tomislav Nikoliçin və Baş nazir Aleksandr Vuçiçin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Serbiyanın Prezidentinə və Baş nazirinə çatdırmağı xahiş etdi.

**AzərTAc**

## Almaniyalı deputat: "Qərb və Rusiya Ermənistana təzyiqlərini gücləndirməlidir"

Almaniya Federativ Respublikası Bundestaqının Cənubi Qafqaz üzrə Parlament qrupunun sədri, millət vəkili Yohannes Kahrs (SPD fraksiyası) Almaniyanın "Hauptstadt İNSEDER" nəşrində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinə dair bəyanatla çıxış edib.

AzərTAc xəbər verir ki, bəyanatda deputat Ermənistan qoşunlarının Azərbaycan torpaqlarından dərhal çıxarılması, Ermənistana qarşı təzyiqlərin gücləndirilməsi tələbi ilə çıxış edir.

"Artıq bir neçə gündür ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin təmas xəttində atəşkəs rejiminin mütəmadi pozulması ucbatından günahsız insanlar həlak olur. BMT Təhlükəsizlik Şurasının 4 məlum qətnaməsini rəhbər tutan beynəlxalq ictimaiyyət Dağlıq Qarabağ və 7 ətraf rayondan Ermənistan işğalçı qüvvələrinin dərhal çıxarılmasını tələb edir. Amma bu məsələdə heç bir müvəffəqiyyət əldə olunmayıb. Son əsgər ölümlərindən sonra Qərb dövlətləri ilə Rusiya gərək bu qeyri-qanuni işğala son qoyulması üçün Ermənistana təsir imkanlarını gücləndirməlidir. Əks halda Qafqazda növbəti müharibə ocağı ilə üzləşməli olacağıq", - deyə Yohannes Kahrs vurğulayır.

## Sergey Markov: Dağlıq Qarabağın statusu qüdrətli Azərbaycanın mənafeləri nəzərə alınmaqla dəyişəcək

***Rusiya Siyasi Tədqiqatlar İnstitutunun direktoru, Rusiya İctimai Palatasının üzvü Sergey Markov Azərbaycan, Rusiya və Ermənistan prezidentlərinin Soçidə keçirilmiş görüşünün nəticələrini şərh edib.***

S.Markov özünün Facebook səhifəsində yazıb ki, 20 il əvvəl Dağlıq Qarabağda hadisələr Ermənistanın daha güclü olması fonunda baş verirdi: "İndi isə Azərbaycan daha güclüdür və istəyir ki, hazırda regiondakı vəziyyət qüvvələrin yeni nisbətinə uyğun olsun, bu nisbət isə hazırda Azərbaycanın xeyrinədir".

Onun fikrincə, Azərbaycan ilk növbədə Dağlıq Qarabağ ətrafındakı işğal altında olan rayonlarını geri qaytarmaq istəyir və yalnız bundan sonra Dağlıq Qarabağın statusu haqqında danışıqlara başlamağa razıdır. Politoloq yazır: "Azərbaycanın uzun illər davam edən qüdrətlənməsi əvvəl-axır Dağlıq Qarabağın statusunun yeni, qüdrətli Azərbaycanın mənafeləri nəzərə alınmaqla dəyişməsinə gətirib çıxarmaya bilməz".

S.Markov qeyd edir ki, Azərbaycan ATƏT-in Minsk qrupunun fəaliyyətindən narazıdır. Belə ki, Minsk qrupunun üzvü olan 3 ölkədə erməni diasporu daha güclüdür. Bu isə münaqişəni dondurulmuş vəziyyətdə saxlayan Minsk qrupunun mövqeyinə təsir göstərməyə bilməz. O yazır ki, hazırki vəziyyət köhnə qüvvələr nisbətini göstərir, halbuki hazırda Azərbaycan 10 illik sürətli inkişaf nəticəsində daha güclü olub.

**AzərTAc**

## Ermənistanın cinayətkar hərbi-siyasi rejiminin işğalçılıq siyasəti bu ölkənin tam süqutuna və məhvinə gətirib çıxaracaqdır

***Azərbaycana düşmən münasibəti bəsləyən Ermənistan prezidenti Serj Sarkisyanın "armnews" informasiya agentliyinə müsahibəsində dövlətimizin və xalqımızın ünvanına səsləndirdiyi hədə-qorxu dolu fikirlər heç bir təsir qüvvəsinə malik deyildir. Bu, Sarkisyanın özünün də inanmadığı, erməni xalqının sevdiyi bir nağıl və fərziyyədir.***

Xocalıda, Dağlıq Qarabağın digər kənd və qəsəbələrində, o cümlədən ətrafdakı yeddi rayonun yaşayış məntəqələrində cinayətlər törətmiş, əli günahsız insanların qanına batmış bu cani ən yaxın zamanda Azərbaycan xalqı və beynəlxalq ədalət məhkəməsi qarşısında bütün məsuliyyəti ilə mütləq cavab verəcəkdir. Azərbaycan dövləti öz torpaqlarını, Dağlıq Qarabağı erməni separatçılarından təmizləmək və ərazi bütövlüyünü bərpa etmək niyyətindədir.

S.Sarkisyanın dediyi ballistik raketlərə gəlincə isə, qətiyyətlə bəyan edirik ki, Ermənistan silahlı qüvvələrinin sərəncamındakı hərbi texnikanı Azərbaycanın malik olduğu ən müasir silah və texnika ilə heç cür müqayisə etmək olmaz. Ermənistan ordusunun keçmiş sovet dövründən qalma, nasaz, köhnəlmiş silah-sursatı, o cümlədən, maye yanacaqla işləyən "Skad" tipli raketləri nəinki hər hansı bir obyekti məhv etmək, heç havaya qalxmaq imkanına belə malik deyildir.

Əgər Ermənistan ölkəmizə qarşı hərbi əməliyyatlara əl atarsa, o zaman ən yeni, müasir və yüksək dəqiqliyə malik silahlarla təchiz olunmuş Azərbaycan Ordusu Ermənistan ərazisindəki istənilən hərbi infrastrukturu və strateji obyektləri darmadağın edəcəkdir.

S.Sarkisyanın müsahibəsində söylədiyi fikirlər Ermənistan dövlətinin və onun cinayətkar hərbi-siyasi rejiminin işğalçılıq siyasətindən əl çəkmədiyinə əyani sübutdur. Bu isə Ermənistan dövlətinin tam süqutuna və məhvinə gətirib çıxaracaqdır.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Respublikasının Müdafiə naziri Serbiya Respublikasının Müdafiə nazirini qəbul edib






***Avqustun 12-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Serbiya Respublikasının Müdafiə naziri cənab Bratislav Qaşiçi qəbul edib.***

B.Qaşiçin rəhbərlik etdiyi nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda ümumilli lider Heydər Əliyevin və Zərifə xanım Əliyevanın, sonra Şəhidlər xiyabanında ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş vətəndaşlarımızın məzarlarını ziyarət edərək əklillər və gül dəstələri qoyublar.

Sonra B.Qaşiçin Müdafiə Nazirliyində rəsmi qarşılanma mərəsimi keçirilib. Hər iki ölkənin dövlət bayrağının dalğalandığı meydanda Serbiyanın Müdafiə nazirinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb. Fəxri qarovulun rəisi raport verdikdən sonra Serbiyanın və Azərbaycanın dövlət himnləri səsləndirilib. Rəsmi protokola uyğun olaraq qonaq Şərəf Kitabını imzalayıb.

Nümayəndə heyətlərinin iştirakı ilə keçirilən görüşdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov qonaqları salamlayaraq, cari ilin fevral ayında Serbiyaya rəsmi səfəri zamanı aparılan danışıqların və keçirilən görüşlərin uğurla baş tutduğunu xatırladıb, hərbi əməkdaşlığın tərəflər arasında imzalanan saziş əsasında həyata keçirildiyini və bu əlaqələrin daim inkişaf etdiyini qeyd edib.

Ölkələrimizin yerləşdikləri regionlardakı hərbi-siyasi vəziyyət və təhlükəsizlik məsələləri barədə danışan Müdafiə naziri dövlətlərimizin separatçılıqla üz-üzə qaldığını xüsusi vurğulayıb.

B.Qaşiç öz növbəsində ölkələrimiz arasında mühüm strateji əməkdaşlığa, dost və mehriban münasibətlərin mövcudluğuna toxunaraq Serbiyanın hər zaman Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə tərəfdar olduğunu bildirib.

Sonra Azərbaycanla Serbiya arasında hərbi təhsil, hərbi texniki sahələrdə və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Serbiya Müdafiə nazirinin Azərbaycana səfəri avqustun 13-dək davam edəcək.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**fotolar**
**Vüsal HƏMİDOVUNDUR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Düşmən tərəfindən açılan atəşdən bir əsgərimiz şəhid olub, biri isə yaralanıb

Avqustun 9-da erməni silahlı bölmələrinin atəşkəsi pozması nəticəsində saat 22.30 radələrində Ermənistan-Azərbaycan sərhəddinin Tovuz rayonu ərazisində, qoşunların təmas xəttində Silahlı Qüvvələrimizin 1995-ci il təvəllüdlü, Ağsu rayonundan hərbi xidmətə çağırılmış əsgər Fətəlizadə Rüfət Nazim oğlu düşmən tərəfindən açılan atəş nəticəsində şəhid olub.

Müdafiə Nazirliyinin rəhbərliyi şəhidin ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir və səbr diləyir.

* * *

Avqustun 9-da erməni silahlı bölmələrinin atəşkəsi pozması nəticəsində saat 19.45 radələrində Ermənistan-Azərbaycan sərhəddinin Gədəbəy rayonu ərazisində, qoşunların təmas xəttində Silahlı Qüvvələrimizin 1993-ci il təvəllüdlü, Mingəçevir şəhərindən hərbi xidmətə çağırılmış əsgəri Tağıyev Orxan Qalib oğlu düşmən tərəfindən açılan atəş nəticəsində yaralanıb.

Yaralı əsgər ilkin tibbi yardım göstərildikdən sonra hərbi tibb müəssisəsinə təxliyyə edilib. Hazırda əsgərin vəziyyəti kafidir, həkimlərin nəzarəti altındadır.

## Silahlı Qüvvələrin Baş Qərargah rəisi cəbhə bölgəsindədir

***11 avqust 2014-cü il.***

Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun rəhbərliyi ilə Baş Qərargahın zabitlərindən ibarət qrup cəbhə bölgəsində yerləşən hərbi birlik və birləşmələrdədir.

Səfərin məqsədi müdafiənin ön xəttində yerləşən bölmələrin döyüş qabiliyyətinin, müdafiənin dayanıqlığının, maddi-texniki və digər təminat növləri, silah-sursat, hərbi texnika ilə təchizatının, şəxsi heyətin mənəvi-psixoloji vəziyyətinin, nizam-intizamının və sosial şəraitinin yoxlanılmasıdır.

## Silahlı Qüvvələrimizin nümayəndələri beynəlxalq tədbirlərdə iştirak edəcək

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin nümayəndələri avqustun 13-dən 17-dək Moskva şəhərində (Rusiya) "Maşınqayırma texnologiyaları-2014" 3-cü beynəlxalq forumunda və "Oboronekspo-2014" sərgisində iştirak edəcəklər.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozmuşlar

***12 avqust 2014-cü il.***

Müdafiə Nazirliyi bildirir ki, cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimi ümumilikdə 16 dəfə pozulub.

Erməni silahlı bölmələri dünən və bu gecə Ermənistan Respublikasının Krasnoselsk rayonunun Cil kəndində yerləşən mövqelərdən Gədəbəy rayonunun ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimizi atəşə tutublar.

Ağdam rayonunun Mərzili, Yusifcanlı, Sarıcalı, Kəngərli, Füzuli rayonunun Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Tərtər rayonunun Göyarx, Goranboy rayonunun Tapqaraqoyunlu kəndləri yaxınlığında yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

Düşmən cavab atəşi ilə susdurulub.

*Ön xətdən reportaj*

# "Hücumun qarşısı vaxtında alındı"



***Goranboy rayonunda olan döyüş postlarından birindəyik. Burada olan şəxsi heyət ötən günlər düşmənin kəşfiyyat - diversiya qrupunun həmləsinin qarşısını qətiyyətlə alıb. Hadisə zamanı kiçik çavuş Elvin Əsgərov qarın nahiyəsindən yaralanıb.***

Döyüş postunda hadisənin canlı şahidi olan əsgər Qadir Cəfərov söhbətimizdə danışır ki, həmin gün şəxsi heyət döyüş növbətçiliyinə hazırlaşırdı. Qəflətən kiçik çavuş Əsgərovun "Məni vurdular" sözünü eşitdik və "Basqın" komandası alıb mövqe tutduq. Silahlara sarılıb dairəvi mühafizə təşkil etdik. Çünki düşmən əks istiqamətdən hücuma keçmişdi. Sonra rabitə əlaqəsiylə əlavə kömək istədik. Tez bir zamanda kömək gəldi və döyüşməyə başladıq. Ayıq-sayıqlığımızı görən düşmən geri çəkilməyə məcbur oldu. Təxminən 10-15 nəfər erməni hücuma keçmişdi. Düşmən geri çəkilərkən onlara həmlə etsək də meşənin sıxlığı düşməni məhv etməyə imkan vermədi. Yağı əsgərlər qaçaraq meşəlikdə gözdən itdilər. Düşmənin ölən və yaralananları haqqında məlumatımız olmadı. Dərhal yaralı post başçısını tibb məntəqəsinə təxliyyə etdik. Gəncədə yerləşən hospitalda müalicə aldığını, vəziyyətinin yaxşı olduğunu bilirik. Düşmənin qarşısını vaxtında ala bildik və heç bir itkimiz yoxdur.

Əsgər sözlərinə davam edərək bildirir ki, xalqımız sərhədlərimizin etibarlı əllərdə olmasına inanmalıdır. Qoy hamı bilsin ki, hər an Vətənin keşiyində duran mərd oğullarımız var. Bunlar ürəkdən gələn sözlərdir. Vətənimizi sevin. Elə sevin ki, onun hər qarışı üçün canınızdan keçməyə hazır olasınız.

Ağsaqqal söhbətlərindən dəfələrlə eşitmişik ki, Vətən sevgisi imandan gəlir. Vətənə sədaqət, bağlılıq insanın ruhunda olmalıdır. Vətəni ruhunuzla, mənliyinizlə sevin.

Əsgər Q.Cəfərov ali təhsillidir. 11 aydır xidmətdədir. Ön xətdə xidmət etməkdən qürur duyur. Deyir ki, düşmənlə üz-



üzə xidmət etmək, mərdlikdir, şərəfdir.

- Düşmən atəşkəsi pozduqda biz də komandirimizin əmri ilə qarşı tərəfi dərhal susdurur və düşmənə layiqli cavabını veririk - deyə əsgər söhbətinə davam edir. - Biz qətiyyən düşməndən çəkinmirik, qorxmuruq. Hər an əldə silah ayıq-sayıq dayanıb Ali Baş Komandanın əmrini gözləyirik.

Əsgərin sözlərinə bircə cümlə ilə son qoyardım: ağacın barı olduğu kimi, müharibənin də şəhidləri olur.

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

*Döyüş hazırlığı*

# Ən məsuliyyətli tapşırıq

***Hərbi Hava Qüvvələrinin "N" hərbi hissəsində əsas döyüş növbətçiliyi komanda məntəqəsində keçirilir. Gün ərzində əməliyyat növbətçisi olan zabitlə birgə döyüş növbəsində müxtəlif ixtisaslar üzrə tapşırıqları yerinə yetirən əsgərlər də ən məsuliyyətli anlarını yaşayırlar. Ölkəmizin hava sərhədlərinin hərbi təxribatlardan qorunmasını öhdəsinə götürən döyüş heyətinin hər bir üzvü ayıq-sayıqlığa və dəqiqliyə ciddi əhəmiyyət verir.***



Hərbi hissədə komandir və zabitlərlə söhbət zamanı başa düşdüm ki, döyüş növbətçiliyinin yüksək səviyyədə keçirilməsini təmin etmək komandanlığın diqqətində olan əsas məsələdir. Bu məqsədlə əsgərlərlə keçirilən məşğələ və dərslərdə hər bir ixtisas üzrə fərdi hazırlığa önəm verilir. Rabitəçi, operator, planşetçi və digər döyüş vəzifələrinə təyin edilmiş əsgərlərin peşəkarlığını artırmaq üçün komandirlər bacarıq və səylərini əsirgəmirlər.

Polkovnik-leytenant Azər Yaqubov bildirdi ki, komanda məntəqəsində döyüş növbətçiliyi keçirən şəxsi heyətin hərtərəfli hazırlığına heyət rəisi olan zabit məsuliyyət daşıyır. Həmin zabit döyüş heyətini təlimatlandıran zaman tabeliyində xidmət edəcək hər bir əsgərin sağlamlığından tutmuş mənəvi-psixoloji hazırlığına kimi cavabdehlik daşıyır. Buna görə də belə məsuliyyətli tapşırıqlar ən bacarıqlı əsgərlərə həvalə olunur. "Komanda məntəqəsində döyüş növbətçiliyini həyata keçirən şəxsi heyətin hərbi biliklərini artırmaq məqsədilə onlarla müntəzəm dərs və məşğələlər keçirilir. Zabitlərimiz bir həqiqətə önəm verirlər ki, döyüş növbəsində dayanan əsgərin qarşısında ən məsuliyyətli tapşırıq - Vətənimizin hava sərhədlərinin hərbi təcavüzdən qorunması vəzifəsi qoyulub."

Komanda məntəqəsində tanış olduğum peşəkar zabit Asif Rəhimov bölük komandiridir, hərbi məktəbi bitirdikdən sonra taqım komandiri kimi ilk təyinatı cəbhə bölgəsinə verilib. Zabitə görə, cəbhə bölgəsi bəzi özəl çətinlikləri ilə yadda qalmasına baxmayaraq, hərbi qulluqçuların təcrübə qazanmasında əsas baza rolunu oynayır.

- Hərbi təhsilimi başa vurduqdan sonra cəbhə bölgəsində yerləşən hava hücumundan müdafiə bölməsinə taqım komandiri təyin edildim, - deyə gənc zabit bildirir. - Burada ilk vaxtlar xidmət etməkdə çətinliklərim üzə çıxsa da, az müddətdən sonra təcrübəli həmkarlarımın köməyi sayəsində hərbi vərdişlər qazandım. Doğrudan da cəbhə bölgəsi əsl məktəbdir, burada qarşılaşdığın çətinliklər səni iradəli və mübariz olmağa sövq edir.

Bir ildən artıqdır ki, zabit hazırkı hərbi hissədə xidmətini davam etdirir. Komanda məntəqəsində döyüş növbətçiliyinə cavabdehlik daşıyan bölük komandiri xidməti vəzifəsini daim tələbkarlıqla icra edir.

Fürsətdən istifadə edib döyüş növbəsində vəzifə borcunu yerinə yetirən gənc əsgərlərimizlə tanış oluram. Tofiq Aslanov və Təbriz Tağıyev söhbətimizdə bildirirlər ki, onlar qısa vaxtda hərbi vəzifələrinin sirlərinə alışıblar və istənilən məqamda "Həyəcan" siqnalı ilə bir nömrəli döyüş vəziyyətinə hazırdırlar.

- Müstəqil dövlətimizin hava məkanı tam nəzarətimizdədir, - dedi əsgərlər. - Müasir döyüş texnikaları hava sərhədlərimizi ayıq-sayıqlıqla qorumağa imkan verir.

**Mayor**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU



*Əməkdaşlarımız ezamiyyətdən qayıdıblar*

# Xalq öz ordusuna güvənir

***Erməni dəyirmanına su tökməklə məşğul olan bəzi kütləvi informasiya vasitələri və internet saytları öz səhvlərini başa düşərək susmağa məcbur oldular. Onlar başa düşdülər ki, əməlləri ilə ermənilərə rəvac vermək hec də onlara başucalığı gətirmir. Hər kəs - kimliyindən, tutduğu vəzifə və mövqeyindən asılı olmayaraq xalqın və ordunun yanında olmalıdır. Bu günlərdə bir qrup QHT və KİV nümayəndələri cəhbə bölgələrində olub, səngərdə Vətənin müdafiəsində dayanan əsgərlərlə və cəhbə bölgəsində yaşayan əhali ilə görüşüb.***

***Beləliklə, yolumuz Ağdamadır. Qeyd edim ki, hələ Dağlıq Qarabağ hadisələri başlayanda Ağdam camaatı ermənilərə tutarlı cavablar vermişdi.***

Bu yerin insanları qorxmaz, mərd, igiddirlər. Dar gündə birləşib düşməni yerində oturtmağı bacarırlar. Deyirlər, xeyirlə şər qardaşdır. Bu gün ağdamlılar şəhidlərinə yas saxlamaqla yanaşı, həm də oğul və qızlarına nişan taxıb toy məclisi qururlar. Qoy düşmən sevinməsin, - deyirlər.

Düşmənin kəşfiyyat-diversiya qrupunun hücümunun qarşısını şücaətlə alarkən avqustun 1-də şəhid olmuş çavuş Əhmədov Qaryağdı Eldar oğlunun yas mərasimində xeyli insanın toplaşdığını gördük. Rayon ağsaqqalları, keçmiş döyüşçülər, kənd camaatı şəhidin ailəsinə və qohum-əqrabasına ürək - dirək verir, Allahın onlara verdiyi bu sınaqdan da üzüağ çıxmağı diləyirdilər.

Ağdam Rayon Ağsaqqallar Şurasının sədri, Sosialist Əməyi Qəhrəmanı Sədrəddin Ələsgərov bizimlə söhbətində bildirdi ki, Azərbaycan xalqı düşmənə hec zaman baş əyməyəcək, onu sevinməyə qoymayacaq. Bu yaxınlarda Silahlı Qüvvələrin Ali Baş Komandanı



İlham Əliyev cənablarının bizim bölgəyə səfəri xalqımızda böyük inam və ruh yüksəkliyi yaratdı. Xalq öz prezidentinə və ordusuna güvənir. Bu ruh yüksəkliyini yaradan sizlərsiniz! Görürsünüz, indi bizimlə bərabər dərdimizə şərik olursunuz. Axı həyat davam edir. Erməni hər an pusqudadır. Ordumuzun gücü düşməni çox sarsıdır, onu qorxudur.

Şəhidin yas mərasimində iştirak edən Qarabağ Əlilləri Cəmiyyəti Ağdam rayon şöbəsinin üzvləri Oruc Cabbarov, Fəxrəddin Abışov, Məmmədəli Ələkbərov və başqaları hər an Ali Baş Komandanın əmrini gözlədiklərini, bir qarış belə torpağı ermənilərə verməyəcəklərini diqqətimizə çatdırdılar. Qarabağ əlili Oruc Cabbarov vurğuladı ki, bu günlərdə cəhbədə yaranan gərginliklə əlaqədar olaraq Bərdə, Ağcabədi, Tərtər, Yevlax və başqa bölgələrdən gənclər bizə müraciət edərək düşmənə layiqli cavab verməyə, şəhidlərmizin qisasını almağa hazır olduqlarını bildirmişdilər. Bütün bunlar biz keçmiş döyüşçüləri çox sevindirir. Ona görə ki, gənclərimiz lazım gələrsə səfərbər olunmağı bacarırlar.



Xüsusi qeyd etmək istəyirəm ki, Ağdam rayonu cəhbə bölgəsi olsa da insanlarda həyat ritmi, qurub-yaratmaq eşqi çox yüksəkdir. Kəndlər arasında salınmış asfalt yolların sağ və solunda geniş təsərrüfat sahələri, aparılan tikinti - abadlıq işləri, yeni yaşayış evləri Ağdam camaatının zəhmətsevərliyindən, torpağına, elinə-obasına bağlılığından xəbər verir. Vaxtılə sovet dönəmində respublikada "Çay evi" kimi məşhur olan bir tikilinin yenidən Quzanli qəsəbəsində qurulması və ətrafında park salınması diqqətimizi daha çox cəlb edən məqamlardandır. Xındırıstanda "Sevinc" şadlıq sarayında Nizami ilə Nərminin toy məclisi tarixə düşən toylar sırasında oldu. Bizim toy məclisində iştrakımız, "Qarabağ şikəstəsi" məclisə gələn qonaqların əhval-ruhiyyəsinə bir rəng qatdı.

Yolboyu hərbi maşınlara, "əsgər, əsgər" - deyə əl edən Quzanlı uşaq bağçasının körpələri bizi qürur hissi ilə sevindirdi. Onlar Azərbaycanın gələcək müdafiəçiləri və igid əsgərləridir.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# "Vətənin keşiyində dayananlar"

***Səhər həmişəki kimi işə gəlirsən və işləyəcəyin mövzunu fikirləşirsən. Lakin gözlənilməz xəbəri oxuyursan: "8 əsgərimiz şəhid oldu" . Bu gün bütün xalqın hüzn gününə çevrilir...***

Avqust ayı özü ilə qara xəbərlər gətirdi. Öncə 8 əsgərimiz, ardınca 5, daha sonra da yaralı olan əsgərlərimiz və beləliklə Vətən şəhid verməyə başladı. Sanki bunu çoxdandır gözləyirmiş kimi, döyüş əzmini göstərdi. Böyütdüyü igidlərinin bəhrəsini gördü. Düşmən nə qədər israr etsə də, Vətənin övladları onların niyyətini puça çı-



xartdı. Nəticədə oğullarımız şəhidlik zirvəsinə yüksəldi...

Etiraf edim ki, onlara qısqanclıq da etdim. "Niyə mən də orda ola bilmədim, niyə mən də şəhid olmadım?" Jurnalistlik fəaliyyətimdə ən acı mövzu şəhidlərlə bağlı oldu. Heç istəməzdim onlardan yazmaq, sadəcə, onları sükutla yad etməyi daha doğru hesab edirəm...

Lakin son zamanlar cəbhə xəttində atəşkəsin pozulması, erməni kəşfiyyat-diversiya qruplarının dayanmadan xalqın hüzurunu pozması məni də narahat etməyə bilməzdi. Bakıda oturub xəbər yazmaqdansa, Vətənin, xalqın yanında olmağı doğru və həmçinin borc hesab edib cəbhəyə yollandım. Acı bir məqam: Vətənin ağrılı günlərində təəssüflər olsun ki, kütləvi informasiya vasitələri insanların fikirlərini qarışdıran yalan məlumatları yayımlayırlar. Günortaya yaxın ezamiyyət tapşırığını aldım və çantamı götürüb, cəbhəyə yola düşdüm...

Budur, Qarabağın strateji mərkəzlərindən biri olan Tərtər rayonundayıq. Bura hazırda atəşkəsin intensiv pozulduğu rayonlardan biridir. Tərtər rayonu qədim yaşayış məskənidir. Bu ərazi bəzi mənbələrə görə "Terter" oba adlanır, bu da "Tərtər" etnonimindən və oba sözündən götürülmüşdür. Qarabağa çox yaxın olan Tərtər rayonu erməni təcavüzündən tarix boyu əziyyət çəkib.

Hazırda Ağdərə rayonunun yaşayış məntəqələri işğal altındadır. Qeyd edək ki, sərhədyanı bölgə olduğu üçün Tərtər ətrafında da tez-tez döyüşlər gedib.

Hələ ermənilər I Qarabağ müharibəsi dövründə cəbhənin Goranboy və Tərtər bölgəsinə strateji ərazi kimi yanaşıblar. Onlar istər 1992-ci ildə, istərsə də 1994-cü ildə əsas diqqəti cəbhənin bu istiqamətinə yönəldiblər. O dövrdə Tərtər istiqamətində döyüşlərdə iştirak etmiş zabitlərin sözlərinə görə, 1994-cü ilin yanvar ayında ermənilərin canlı qüvvə və texnikasının demək olar yarısı məhz cəbhənin bu istiqamətində cəmləşdirilmişdi.

Son günlər baş verən hadisələr də deyilən tarixi faktları təsdiqləyir. Düşmən bu istiqamətdə atəşkəsi pozur və sərhədəyanı ərazilərə həmlələr edir. Lakin həmişəki kimi onların arzuları gözlərində qalır. İgidlərimizin səyi nəticəsində düşmən itki verərək geri çəkilir.

Tərtərin düşmənin bir addımlığında olan ən qaynar yaşayış məntəqələrindən olan Qapanlı kəndindəyik. Son günlər bəzi mətbuatda bu kəndin boşaldıldığı xəbəri yayılmışdı. Budur, kəndin mərkəzindəyik və qarşıdan avtobus gəlir. Kəndin ağsaqqallarından biri əlində çörək və ev üçün lazım olan bəzi ərzaqlarla avtobusdan enir. Yaxınlaşıb, ağsaqqaldan hal-əhval tuturuq, həmçinin vəziyyətlə bağlı məlumat öyrənirik.

Qapanlı kənd sakini İsmayıl Hüseynov, 75 yaşı var.

### "Bizi qorxaq kimi göstərməyin. İnsan öz anasını da tərk edər!?"

- Mən, 1992-1994-cü illərdə döyüşlərdə iştirak etmişəm. Həmin ağır günlərdə biz kəndimizi tərk etməmişik. İnsan öz anasını da qoyub gedə bilər!? Niyə tərk etməliyik ki? Nədən qorxmalıyıq? Şükür Allaha, güclü hərbi texnikamız, basılmaz ordumuz var. Ordumuzun nizamlı olmağı bizi həvəsləndirir. Bütün Azərbaycan xalqı ordumuzun gücünə güvənir. Erməni nə vaxtdan millət olub ki, biz onlara görə qorxub evlərimizdən çıxaq. O şayiələri yazanlar da çox səhv edirlər ki, dünyaya bizi qorxaq kimi göstərirlər. Etməsinlər bunu! Bizi qorxaq kimi göstərməyin. Bu dəqiqə, elə bu yaşımda əlimə silah alıb döyüşməyə hazıram.

Bu sözləri ahıl kənd sakini kəndin boşaldılması xəbərini təkzib edərkən deyir. Qeyd edək ki, son günlərdə cəbhə xəttində baş verən insidentlərə görə Qapanlı əhalisinin kəndi tərk etdikləri xəbəri verilmişdi.

İsmayıl Hüseynov ermənilərin atəşkəsi tez-tez pozmasından, kəndi aramsız atəşə tutmalarından danışır.

- Bu kəndin sakinləri 17 ildir əsgərlərlə çiyin-çiyinə yaşayır. Təmtəraqlı evlərə olan rəğbətləriylə seçilən bütün qarabağlılar kimi, tərtərlilər də müharibədən öncə bu ənənəni yaşadıblar və böyük, ikimərtəbəli evlər tikiblər. 1990-cı illərdən bəri bu evlərin ikinci mərtəbəsinin qapıları sahiblərinin üzünə qapalıdır. Top atəşləri evlərin damlarını dağıdıb. Divarlar snayper və güllə izlərindən dəlmə-deşikdir. Pəncərələr isə, sınıq-sınıq olub. Mənfur düşmən təxribatlar törətməklə dünyada Azərbaycana qarşı mənfi rəyini formalaşdırmağa çalışır. Lakin biz bundan qorxmuruq və narahat olmuruq. Ali Baş Komandanımız, uzaqgörən rəhbərimiz İlham Əliyev bütün dünyaya öz sözünü deyir və torpaqlarımızın işğaldan azad olunmasının sülh yolu ilə həllinə çalışır.

Həmsöhbətimiz Qarağacı bələdiyyəsinin sədri Lətif Həmidovdur.

### "Ermənilər fəallaşıblar, lakin onlardan qorxan yoxdur, hamı öz işi ilə məşğuldur"

- Son günlərdə ermənilər çox fəallaşıblar, lakin buna baxmayaraq kənd əhalisi həmişəki kimi gündəlik qayğıları ilə məşğuldur. Yəqin ki, yolboyu fikir verdiniz, əhali əkin-biçinlə, mal-qara ilə məşğuldur. Çünki hər kəs bilir ki, qarşıda cəsur əsgərlərimiz dayanıb. Biz burada olaola, Bakıda yazırlar ki, burdan köçmüşük. Siz deyilənlərin yalan olduğunu öz gözlərinizlə gördünüz.

Lətif müəllim atəşkəsin pozulduğu bu dövrdə kəndə gediş-gəliş məsələsinə də aydınlıq gətirdi.

- Kəndə insanların gəlişi və gedişində azalma yoxdur. Hər şey əvvəlki qaydasındadır. Əksinə, yay mövsümü ilə əlaqədar ətraf rayonlarda, şəhərlərdə yaşayan kənd camaatı istirahət etmək üçün buraya üz tutur.

Yolumuza davam edirik. Düşmənin kəşfiyyat - diversiya qrupunun qarşısını alan cəsur əsgərlərimizlə görüşə tələsirik. Artıq mənzil başına çatmışıq. Qəribə hissdir. İnsan onları görəndə həm qürurlanır, həm də kövrəlir...

İyulun 31-dən avqustun 1-nə keçən gecə erməni kəşfiyyatçılarının qarşısını alan döyüşçülərimizlə birlikdəyik.

İlk həmsöhbətim düşmən basqınının qarşısının alınmasında igidlik göstərmiş gizir Babək Əliyevdir. O, həmin gecə baş verən döyüşdən və şəhid olmuş dostlarından danışır.

- Gecə saat 01:45 radələrində manqanın əsgəri Vüqar Poladov müşahidə zamanı erməni diversiya qrupunu aşkar edib manqaya



"Basqın" komandası verərək atəş açdı. Həmin gecə döyüş tapşırığına əsasən təyin olunmuş yerdə sağ, sol, ön və arxa müşahidələr qurulmuşdu. Mən əsgərlərlə birlikdə döyüş növbətçiliyini yerinə yetirirdim. Gecə saat 01:45 radələrində manqanın əsgəri Vüqar Poladov müşahidə zamanı erməni diversiya qrupunu aşkar edib ilk olaraq atəş açdı. Bu həmləni gözləməyən düşmən səngərə 2 əl qumbarası atdı. Mən və digər əsgərlər döyüş vəziyyətini alaraq düşmənə atəş açmağa başladıq. Təxminən 5-6 dəqiqə yaxın məsafədən döyüşdük. 15-20 nəfərlik erməni kəşfiyyatı bacara bilməyəcəklərini görüb geri çəkildi.

Sonra dərhal taborla əlaqə saxlayaraq düşmən hücumu barədə məlumat verdik. Hücum zamanı təəssüflər olsun, iki əsgərimizi itirdik. Əsgər Vüqar Poladov və Elnur İbrahimov şəhid oldu.

Növbəti həmsöhbətim də hadisə zamanı döyüşən əsgərlərimizdən biri Elşən Sədullayevdir.

### "Onun bizə son sözü " Su verin" oldu"

- Həmin gecə döyüşdə atılan əl qumbaralarından sonra hər tərəfi toz-duman bürümüşdü. Lakin özümüzü itirmədik. Silahlarımıza sarılaraq döyüşməyə başladıq. Əzmimizi görən düşmən geri çəkilməyə başladı. Əsgər yoldaşım Elnur İbrahimov yerindəcə şəhid olmuşdu. Yaralı Vüqar Poladov isə yolda şəhidlik zirvəsinə ucaldı. Hər iki Vətən oğlu düşmənin əl qumbarasının qəlpələrindən dünyalarını dəyişdi.

Həmin anda biz qorxsaq və ya özümüzü itirsəydik, biz bu gün burada ola bilməzdik. Soyuqqanlıqla döyüşdük, düşmənə əsl cavabı verdik. Şəhid olan dostlarımızın hər ikisi yaxşı əsgər olmaqdan əlavə, yaxşı dost, yaxşı yoldaş idilər. Əsgər E.İbrahimov 8 aydır xidmət edirdi. V.Poladov isə, 17 ayın əsgəri idi. 1 ay sonra evlərinə qayıdacaqdı. Lakin qismət olmadı. Hər kəs xidmətini başa vurub evinə qayıda bilər, amma hər kəs şəhidlik zirvəsinə ucala bilməz.

Həmin gecənin şahidləri və iştirakçıları əsgər Ağayev, əsgər Hüseynov döyüşü olduğu kimi danışdılar.Onların sözlərinə görə, şəhid əsgər Poladovun onlara son sözü " Su verin" olub. Onlar bu hadisədən çox üzgün olduqlarını bildirir, həmçinin and içirlər ki, dostlarının qanını yerdə qoymayacaqlar.

İndi isə təmas xəttində yerləşən döyüş postlarından birindəyik. Qeyd edək ki, bu döyüş postunda da erməni kəşfiyyat-diversiya qrupununun həmlələrinin qarşısı alınıb. Həmsöhbətlərimiz gizir Anar Hüseynov və əsgər Elvin Kazımovdur.

Onlar bildirirlər ki, səhər saatlarında döyüş postuna 200 metr məsafədə olan ərazidə düşmənin kəşfiyyat-diversiya qrupunu aşkar ediblər və dərhal düşmənə atəş açıblar. A.Hüseynovun sözlərinə görə, kəşfiyyat-diversiya qrupu hissə-hissə mövqelərimizə keçməyə cəhd göstərib. Onlar müşahidə zamanı iki nəfərin gəldiyini və bir qrupun isə arxada gizləndiyini görüblər. Döyüşçülərimizin ciddi səyi nəticəsində düşmən geri çəkilməyə məcbur olub.

Burada hər kəs xidmət etməkdən qürur duyduğunu bizimlə bölüşdü. Onlar bildirdilər ki, döyüşə tam hazırdırlar. Yalnız Ali Baş Komandanın əmrini gözləyirlər.

Biz isə, hazırda hisslərimizi ifadə edə bilmirik. Bir məsələyə tam əminik ki, cəbhədə yaşayan insanlar elə qəhrəman doğulublar. Həm kənd camaatının, həm də döyüşçülərimizin söhbətinə görə, sadəcə son günlər ermənilər fəallaşıb, lakin həmişəki kimi, onlar layiqli cavablarını alırlar. Əsgərlərimiz bildirdilər ki, biz onlara cavab vermək üçün atəş açanda, onlar atəşi saxlamaq üçün yalvarırlar. Rus dilində " atəşi kəsin" kimi sözlərlə əsgərlərimizə müraciət edirlər. Bir sözlə, burada yaşayan insanların da döyüş əhval-ruhiyyəsi çox yüksəkdir. Onlar hər an döyüşə hazırdır. Bütün bunlar onu göstərir ki, Azərbaycan xalqı qorxmur və torpaqlarımızın azad olunacağına inanır. Ən əsası isə, ordu və xalq bir yerdədir. Bu da Vətənimizin bölünməz olduğunun göstəricisidir.

Haqq savaşında Allah əsgərlərimizə qüvvət, iradə və səbr versin!

**Leytenant**
**Ceyhun CƏFƏRLİ,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər:

## hadisələr, faktlar

### Yaponiya "Xalonq" qasırğasının cəngində



Güclü yağış və küləklə müşayiət olunan "Xalonq" qasırğası Yaponiyada 360-dan çox aviareysin təxirə salınmasına səbəb olub.

AzərTAc İTAR-TASS agentliyinə istinadla xəbər verir ki, ötən gecə təbii fəlakətin əsas zərbəsi ölkənin cənub adalarına dəyib. Bu adalara saatda 60 millimetrdən çox yağıntı düşüb. Güclü külək Karosima prefekturasında 3500-ə yaxın evi işıqsız qoyub.

Hazırda qasırğa şimal istiqamətində irəliləyir. Episentrdə küləyin sürəti saniyədə 40 metr, bəzən 55 metr təşkil edir. Siklonun keçdiyi rayonlarda dalğanın hündürlüyü 10 metrə çatır.

Yaponiyanın milli hidrometerologiya idarəsi dağlıq rayonlarda daşqın və torpaq sürüşmələri təhlükəsi barədə xəbərdarlıq edərək, sakinləri ciddi zərurət olmadığı təqdirdə küçəyə çıxmamağa çağırıb.

### Misirdə Süveyş kanalının alternativi tikiləcəkdir



Misir hakimiyyəti Süveyş kanalının alternativi olacaq kanalın tikintisi ilə bağlı irimiqyaslı layihəni reallaşdırmaq niyyətindədir. Misir KİV-ləri bunu Süveyş kanalı idarəsinin rəhbəri Muxab Mamişin bəyanatına istinadla xəbər verir.

Süveyş kanalı idarəsinin rəhbəri bildirib ki, ölkə rəhbərliyi hazırkı kanala paralel olan 72 kilometrlik yeni kanalın tikintisinə başlayır. Onun sözlərinə görə, bu layihə Misiri dünya iqtisadiyyatının mərkəzinə çevirəcəkdir.

Qeyd etmək lazımdır ki, Süveyş kanalı Misirin mühüm nəqliyyat arteriyasıdır. Dünya dəniz daşınmalarının 10 faizi bu kanal vasitəsilə həyata keçirilir.

### ABŞ təyyarələri "İslam dövləti" qruplaşmasının mövqelərinə zərbə endirib



ABŞ-ın döyüş təyyarələri İraqın şimalındakı Ərbil şəhəri yaxınlığında "İslam dövləti" (keçmiş İŞİD) qruplaşmasının mövqelərinə növbəti hava zərbələri endirib. Nəticədə qruplaşmanın 8 üzvünün öldüyü, 20 nəfərin yaralandığı xəbər verilir.

"Anadolu" agentliyinin verdiyi məlumata görə, bu barədə Mosulun "Əs-Səlam" xəstəxanasından bildirilib. Qeyd olunub ki, xəstəxanaya gətirilən cəsəd və yaralılar Mosulun 60 kilometr şərqində, Ərbil yaxınlığında olan Əl-Xazər bölgəsində hava zərbələrinə məruz qalıblar.

Qeyd edək ki, ABŞ Hərb Hava Qüvvələri avqustun 8-də "İslam dövləti" qruplaşmasının mövqelərinə zərbə endirməyə başlayıb.

### Ukrayna hərbi birləşmələri Krasnıy Luç şəhərini azad ediblər



Ukrayna Silahlı Qüvvələri və digər hərbi birləşmələr şənbə günü - avqustun 9-da Luqansk vilayətində 125 minə yaxın əhalisi olan Krasnıy Luç şəhərini separatçılardan azad edib. APA-nın xəbərinə görə, bununla da separatçıların əsas mərkəzi olan Donetsk şəhəri tam mühasirəyə alınıb. Donetsk yaxınlığında separatçıların əsas dayaq nöqtələrindən biri olan Qorlovka şəhəri də mühasirəyə düşüb.

"RİA Novosti" xəbər verir ki, qondarma "Donetsk Xalq Respublikası"nın hərbi qüvvələrinin komandanı, Rusiya vətəndaşı İqor Girkin (Strelkov) məlumatı təsdiqləyib.

Qeyd edək ki, Krasnıy Luç şəhəri Donetsk şəhərindən Luqansk şəhərinə və Rusiya sərhədinə gedən yolda yerləşir və bu baxımdan çox əhəmiyyətli strateji mövqeyə malikdir.

### Ukrayna BMT Beynəlxalq Məhkəməsində Rusiyaya qarşı iddia qaldıracaq




Ukrayna BMT Beynəlxalq Məhkəməsində Rusiyaya qarşı iddia qaldırmağa hazırlaşır.

UNİAN agentliyinin verdiyi xəbərə görə, bunu Ukraynanın Ədliyyə naziri Pavel Petrenko "5-ci" kanalda çıxış edərkən bəyan edib. "Rusiya tərəfinin terrorçulara dəstəyi barədə təkzibedilməz dəlillərimiz var. Söhbət silah-sursat, hərbi texnika, maliyyə vəsaitləri, muzdlu yaraqlılardan gedir" - deyə Petrenko bildirib.

Ədliyyə naziri həmçinin qeyd edib ki, Ukrayna müvafiq hüquqi prosedurların həyata keçirilməsinə başlayaraq Rusiya Federasiyasına nota göndərib. Onun sözlərinə görə, Rusiya terrorçuluğun maliyyələşdirilməsini qadağan edən beynəlxalq konvensiyanı pozduğuna görə ağır sanksiyalarla üzləşə bilər.

### Nigeriya Ebola xəstəliyi ilə əlaqədar ölkədə fövqəladə vəziyyət elan edib



Nigeriya prezidenti Qudlak Conatan ölkədə tüğyan edən Ebola xəstəliyi epidemiyası ilə əlaqədar fövqəladə vəziyyət elan edib. APA-nın verdiyi xəbərə görə, prezident virusun yayılmasının qarşının alınmasına 11,6 milyon ABŞ dolları ayırıb.

Bundan əvvəl Liberiyanın prezidenti Ellen Conson-Serıif də ölkəsində Ebola virusu səbəbindən fövqəladə vəziyyət elan edib.

Beynəlxalq Səhiyyə Təşkilatı Ebola xəstəliyinin beynəlxalq dərəcədə təhlükəli olduğunu təsdiq edib.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

AZƏRBAYCAN ORDUSU

# Alınmaz qalamız - Naxçıvan

## Qədim diyarla və onun müdafiəçilərilə görüşlərdən qeydlər

I yazı



*Naxçıvan Azərbaycanın gözəl təbiəti, özünəməxsus tarixi keçmişi olan bölgələrindəndir. Əmin-amanlıq dövründə bu qədim diyarın insanları qurub-yaratmaqla məşğul olub. Gəmiqaya təsvirləri, böyük Əcəminin ölməz memarlıq əsərlərindən olan Möminə xatun türbəsi kimi zamanın sınağından çıxmış abidələr bunu göstərir.*

Savaş məqamında bölgənin insanları silaha sarılaraq cəsarət və qəhrəmanlıqla vuruşmuş, doğma yurdu yadellilərdən qorumuşlar. Naxçıvan-Culfa yolunun kənarında, Əlincəçayın sağ sahilində yalçın dağ üstündə yerləşən Əlincə qalası dövrünün böyük fatehlərindən olan Əmir Teymurun qarşısında belə diz çökməyib. Çar Rusiyası vaxtında bu diyardan neçə-neçə sərkərdə yetişib. Böyük dövlət xadimi Heydər Əliyev də həyata ilk addımlarını Naxçıvanda atıb. Elə bu səbəbdən Naxçıvan alınmaz qala kimi şöhrət qazanıb. Yolumuz bu gözəlliklər və qəhrəmanlar diyarınadır.

### Yolumuz qədim diyaradır

Naxçıvana getməyi, təbiətinin gözəllikləri ilə yaxından tanış olmağı və uzun illərdir ki, blokada şəraitində yaşasa da, qurub yaradan, qəhrəmanlıqla müdafiə olunan qədim diyarın məğrur müdafiəçiləri barədə yazı hazırlamağı çoxdan arzulayırdım. Naxçıvana sonuncu dəfə sovet dövrünün son illərində qatarla getmişdim. O zaman ermənilər Qarabağı ələ keçirmək üçün bütün istiqamətlərdə total mübarizəyə başlamışdılar. Düşmənin minbir təxribatı ilə naxçıvanlılar da üz-üzə qalmışdılar. Ermənistanın Meğri rayonundan keçib gedən qatarlara basqınlar edilir, soydaşlarımız yolboyu təzyiqlərə məruz qalırdılar. Elə bizim qatarı da erməni millətçiləri daşa basıb çilik-çilik etmişdilər. O vaxtdan 20 ildən artıq bir müddət keçib və bu zaman ərzində Naxçıvan da çox dəyişib.

Nəhayət, Naxçıvana getmək üçün fürsət ələ düşdü. Müdafiə Nazirliyinin zabitləri polkovnik İslam Gəncəliyev, polkovnik-leytenant Arif Kərimov və operator mayor Nağı Əmirovla birlikdə bu qədim diyara getmək imkanı yarandı. Hər birini xeyli vaxtdır ki, tanıdığım, rəğbət bəslədiyim zabitlərlə yola çıxmaq da ürəyimdən oldu.

Budur, Heydər Əliyevin adını daşıyan beynəlxalq hava limanında bizi göyərtəsinə almış təzə "Boinq 757" təyyarəsi uçuş zolağından havaya millənərək qədim diyara istiqamət götürür. Əvvəllər keçmiş sovet və Rusiya istehsalı olan təyyarələr bu istiqamətdə reys edirdilər. Ancaq müasir standartlara cavab vermədiyindən onlar sıradan çıxarılıb və bu gün dünyanın ən müasir şirkətlərinin istehsal etdiyi təyyarələr sərnişinləri Əcəmi yurduna daşıyır.

Əvvəlcədən deyim ki, Azərbaycanın bu qədim və gözəl diyarı məni çox heyrətləndirdi və bu heyrət Naxçıvan aeroportundan başladı. Müasirliyi və yaraşıqlılığı ilə diqqəti çəkən hava limanında səliqə sahman göz oxşayırdı. Elə bil, Vətənimizin bir bölgəsinə deyil, hansısa inkişaf etmiş dünya ölkələrindən birinə gəlmişdim.

Naxçıvanın yolları da müasirdir. Burada geniş küçə və prospektlər, uca və yaraşıqlı binalar, hamar asfalt yollar göz oxşayırdı. Naxçıvan şosselərində gördüyüm bir özəllik də avtomobillərin sürətini tənzimləyən işarələrin zövqlə yola çəkilməsi idi.

### Naxçıvanın müdafiəsi etibarlı təşkil edilib

Bizi Əlahiddə Ümumqoşun Ordusunun zabiti Mirqiyas Rüstəmov qarşıladı.

Bu təcrübəli zabit bizə öz köməyini əsirgəmədi, normal işləməyimiz üçün hər cür şəraitin yaradılmasında şəxsən iştirak etdi. Biz zabit Rüstəmovla iki gün ərzində ön xətdəki bölmələri birlikdə gəzdik, zabit və əsgərlərimizin xidməti, döyüş növbətçiliyilə tanış olduq və yaradılmış yüksək məişət şəraiti ilə bilavasitə tanış olduq.

Məlum olduğu kimi, Silahlı Qüvvələrimizdə "Ən yaxşı ictimai-siyasi qrup" adı uğrunda müsabiqə keçirilir. Əlahiddə Ümumqoşun Ordusunun bölmələri də müsabiqədə iştirak edir. Məhz həmin qrupların fəaliyyətilə tanış olmaq məqsədilə qədim diyara ezam edilmişdik. Bu barədə müsabiqə yekunlaşdıqdan sonra ətraflı söhbət açacağıq. Amma sözün açığı, mən daha çox qədim diyarın müdafiəçilərilə görüşə can atırdım. Ona görə hələ yolda ikən zabit İslam Gəncəliyevə bu barədə istəyimi bildirəndə gülümsünüb:

- Qeydlər götürməyin üçün şərait yaradarıq, - dedi.

Bədnam qonşularımızın göz dikdikləri, ələ keçirmək istədikləri bölgələrimizdən birincisi Naxçıvandır. Zaman-zaman düşmən buna cəhd göstərsə də, bəd niyyətlərinə, xam xəyallarına çata bilməyiblər. Amma təhlükə də qədim yurdumuzun üzərindən çəkilməyib.

Keçmiş SSRİ-nin tarixin səhnəsindən silindiyi dövrdə ermənilər Dağlıq Qarabağı Azərbaycandan qoparmaq üçün çoxdan hazırlaşdıqları mübarizəyə başlayanda Naxçıvanı da unutmamışdılar. Bu savaşda ilk təcavüzə məruz qalan yaşayış məntəqələrimizdən biri məhz Naxçıvanın Kərki kəndi oldu.

Amma qədim sərkərdələr yurdu təmkinini itirmədi, məkrli düşmənin qarşısında əyilmədi, blokada şəraitində yaşamağa məcbur olsa da, hücum və təxribatların qarşısını mətanətlə almağı bacardı.

O zaman Naxçıvan Ali Məclisinə sədr seçilmiş görkəmli dövlət xadimi, təcrübəli siyasətçi Heydər Əliyev qədim diyarın müdafiəsi üçün çox iş görmüşdü. Muxtar respublikanın bütün imkanları Naxçıvanın qorunmasına səfərbər olunmuşdu.

Burada keçmiş SSRİ dövründə 75-ci gücləndirilmiş motoatıcı diviziya yerləşirdi. SSRİ süquta uğradıqdan sonra diviziyanın çıxarılması məsələsi qalxmışdı. Onda Naxçıvana rəhbərlik etmiş Heydər Əliyev müdrik siyasi addımlar ataraq heç bir qarşıdurmaya yol vermədən diviziyanın texniki bazasının





muxtar respublikada saxlanmasına nail oldu. Bunun əsasında 1992-ci ildə Naxçıvanda 5-ci gücləndirilmiş əlahiddə motoatıcı briqada yaradıldı.

Naxçıvanın müdafiəsini möhkəmləndirmək üçün briqada 1995-ci il mayın 21-də gücləndirilmiş motoatıcı diviziyaya çevrildi. Muxtar respublikanın müdafiəsini daha yüksək səviyyədə təmin etmək məqsədilə diviziya 8 dekabr 1998-ci ildə gücləndirilmiş ordu birliyinə çevrildi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 18 dekabr 2013-cü il tarixli qərarı ilə 5-ci ordu birliyinin bazasında Əlahiddə Ümumqoşun Ordusu yaradıldı.

Bu, ölkəmiz üçün çox mühüm hadisə oldu. Çünki bununla Naxçıvanın müdafiə qabiliyyəti daha da artır, idarəetmə təkmilləşdirilir ki, nəticədə daha səmərəli müdafiə sistemi qurulur. Əgər sabah döyüş əməliyyatları başlayarsa, əlbəttə, muxtar respublikanın özünü yüksək səviyyədə müstəqil müdafiə etməsi lazımdır. Ona görə bu qərarın siyasi, strateji və taktiki əhəmiyyəti böyükdür.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev qədim diyarda Əlahiddə Ümumqoşun Ordusunun yaradılması barədə danışarkən demişdir: "Ordu quruculuğu sahəsində aparılan islahatlar, Naxçıvanda Əlahiddə Ordunun yaradılması, bu ordunun ən müasir silah-sursat, texnika ilə təchiz edilməsi bizim dövlət siyasətimizdir. Naxçıvanın hərbi potensialı böyük dərəcədə möhkəmlənmişdir. Naxçıvan ordusu bu gün güclü ordudur. Naxçıvan ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji mövqedə yerləşir. Naxçıvan blokada şəraitində yaşayır və belə olan halda Naxçıvanın döyüş potensialı ən yüksək səviyyədə olmalıdır".

Əlahiddə Ümumqoşun Ordusunun maddi-texniki bazasının möhkəmləndirilməsi, ən müasir silah və texnika ilə təchiz edilməsi onu göstərir ki, bütövlükdə Azərbaycan Silahlı Qüvvələrinin tərkib hissəsi kimi Naxçıvandakı hərbi qüvvələr də ölkə rəhbərinin qayğısı ilə əhatə olunub. Prezidentin bu ilin aprelində Naxçıvana səfəri ərəfəsində muxtar respublikadakı hərbi hissələrə yeni, ən müasir standartlara uyğun hərbi-texniki vasitələrin və silah-sursatın verilməsi bunun parlaq ifadəsidir.

**Bəs bu gün Əlahiddə Ümumqoşun Ordusu hansı qayğılarla yaşayır?**

- Həm Azərbaycanda, həm də Naxçıvanda ordunun qarşısında duran vəzifə birdir, - bizimlə söhbətində zabit Mirqiyas Rüstəmov söylədi. - Ərazilərimizin düşməndən müdafiə olunmasının təmin edilməsi, bunun üçün hərbi hissə və bölmələrin döyüş hazırlığı planında nəzərdə tutulmuş tədbirləri yerinə yetirməsi, fasiləsiz olaraq ön xətdə döyüş növbətçiliyinin həyata keçirilməsi, gecə və gündüz döyüşçülərimizin postlarda ayıq-sayıq xidmətlərini aparması ən vacib və zəruri məsələdir. Bilirsiniz ki, son zamanlar düşmən də etiraf edib ki, Naxçıvanda güclü bir ordu yaradılıb. Əgər düşmən hər hansı istiqamətdə təxribat xarakterli hərəkətlərə yol verərsə, dərhal öz layiqli cavabını alacaq.

Bundan əlavə müdafiə tapşırıqlarının yerinə yetirilməsilə yanaşı, zabit Rüstəmovun sözlərinə görə, döyüşə hazırlıq tədbirləri müntəzəm qaydada həyata keçirilir. Bu baxımdan şəxsi heyətin mənəvi-psixoloji hazırlığı ən vacib məsələlərdəndir. Əgər əsgər ona həvalə edilmiş silahı bilmirsə, döyüşdə nə edə bilər? Silahı və texnikanı mükəmməl mənimsəyən döyüşçülər mənəvi cəhətdən hazırlıqlı, özünə inamlı olurlar. Yəni mənəvi-psixoloji hazırlığın başlıca şərti döyüş hazırlığıdır.

**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu"**

---

Hərbi təhsil

# "Zabit olacağam, ana!.."

*Həzin-həzin meh əsir. Diqqətimi ağacların ufacıq budaqlarında həlimliklə titrəyən yarpaqlar çəkir. Budaqdan üzülmək əndişəsiydimi, ürəyi vaxta-zamana pərsəng olan incə, çox incə bir narahatlığın sıxıntılarından uçunanlara yarpaq diliylə çatdırılan toxdaqlığıydımı, hər nəyiydisə, yarpaqlar həlimliklə titrəməyindədi. 12-13 yaşlı bir uşaq gözlərini qələbəlikdən ayırıb mənə sarı baxır. Gülümsünürəm. Gülümsünür. O bənzərsiz təbəssümün nə olduğunu duya bilirəm: "Vaxtı çatanda məni də onların dayandığı yerdə görəcəksiniz"...*

Bu il H.Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olanların sevinci yerə-göyə sığmır; mülki paltarı hərbi mundir əvəzləyəcək, Hərbi Nizamnamələrin tələblərinə söykənən dörd ilin, dörd ildən sonra on illərin hərbçi həyatının ilk günüdür. Bu anlar onların mülki həyatı ilə hərbçi həyatının yolayrıcıdı. Gün işığı Ali Hərbi Məktəbin həyətinə bir ayrı biçim düşür, meh bir ayrı biçim əsir, yarpaqlar bir ayrı biçim titrəyir. Ürəklərin titrəyişi də bir ayrı biçimdi...

Məktəbin şəxsi heyətlə iş üzrə şöbəsinin rəis əvəzi polkovnik-leytenant Fərid Fərəcov kursantları təbrik edir, onlara uğurlar arzulayır. Kursantlar zabiti qəribə bir kövrəkliklə, ancaq dönməz bir inamla dinləyir. Ötənilki tədbirdə bir kursantdan "Bu anlarda nə düşünürsən?" soruşmuşdum. Gülümsünmüşdü. "Kursant olanda bu qədər sevinən anamın general olacağım gün nə edəcəyini" demişdi. Həm də dönməz inamla demişdi. Həmin günün olacağına zərrəcə şübhə eləməmişdim ("Həzi Aslanov" bədii filmi yadıma düşmüşdü, balaca Həzinin tam artilleriya generalı C.Mehmandarova dedikləri: General olacam!).

Buludsuz göylərin aydınlığı adama könül xoşluğu verir. Kimsənin hiss eləmədiyi bürkü ürəklərin sevinc, fərəh, qürur sərhəddini keçə bilmir. Bu sevincin, bu fərəhin, bu qürrənin nəhayətsizliyindən baxanlar bir azdan hərbi sırada dayanacaq



oğulları hərbi mundirdə təsəvvür eləyər. Bu oğulların düşüncələri o qədər də əhəmiyyət kəsb eləməyən bir sualın cazibəsindən çıxa bilmir: "Komandirim hansıdı?"...

Mayor Fərid Fərəcov kursant adı alanlara da, onların valideynlərinə də bəzi məqamları, hərbi təhsilin özəlliklərini izah edir.

Bir ananın sevincinin cazibəsindən qopa bilmirəm. Onun da oğlu hərbi məktəbə daxil olub. Kursant anasının yerlərə-göylərə meydan oxuyan fərəhini, qürrəsini necə sezməyəsən, necə hiss eləməyəsən? O anaya baxıram. Kövrək baxışların tünlüyündə bir baxış çəkir diqqətimi. "O ananın oğludu" - düşünürəm və dar macalda düşüncələrim bu doğmalığa, bu biçim mehr-ülfətə, bu biçim ehtirama meyllənir. Yadıma Bakıya ilk gəlişimdə anamın məni uğurlayıb yola salması, doqqaz qapımızın ağzında ayaq saxlayıb kövrəkliklə anama sarı boylanmağım düşür. Kursantın kövrək baxışları illərin o üzündə qalan baxışlarımın eynidi...

Hansı hisslərin təsirindənsə məhz həmin ana ilə söhbətləşmək istəyirəm. Svetlana İslamzadədi, Masallı rayonunun Həsənli kəndindən gəlib.

- Oğlum Seymur uşaqlığından mütaliəni sevirdi, - deyir. - Yeniyetməliyində Qarabağ müharibəsinə həsr olunan əsərləri böyük istəklərlə oxuyurdu. "Ağ atlı oğlan" filmi onu yaman tutmuşdu. O filmə baxanda haldan-hala düşürdü. Hərbçi olacağını güman edirdik. Gümanımız bu gün reallaşdı. Oğlum bu peşənin çətinlikləri olacağını da bilir, şərəfli olduğunu da. Bu günkü tədbiri ailəmizə gözaydınlığı hesab edirəm.

Göz aydınlığı! Gözəl ifadədi. Həm də belə bir təntənəli tədbirin mənəvi dəyərini göstərən əsl ifadə!

İlkin Əlişov C.Naxçıvanski adına Hərbi liseyin məzunudur. Bu gün isə Ali Hərbi Məktəbin kursantı olur.

- "Biz qayıdacağıq!" bədii filmi mənim həyatımı tamam dəyişdi, - deyir kusant.

- Əvvəllər mühəndis olmaq fikrindəydim. Bu filmə baxandan sonra düşüncələrim silkələndi. Hərbçi olmağı qərara aldım. Mən də C.Naxçıvanski adına Hərbi litseyin məzunuyam. İndi isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantıyam. Bu gün üçün üç il mən də həsədlə hasarın o üzündən bu yana boylanmışam.

"Dörd ildən sonra səninlə leytenant kimi kəlmələşərik" deyirəm. Gülümsünür. Təbəssümü bu gün reallaşan istəyə dirsəklənən başqa bir istəyin qırışığını açır...

İslam Abdullayev isə Neftçaladandır, Xıllı qəsəbə orta məktəbinin məzunudur. Qəbul imtahanında 553 bal toplayıb. Bu, hərbi məktəb üzrə ən yüksək nəticədir... Nəsə soruşmaq istəyirəm. Niyəsə fikrimdən daşınıram. O sualı zamanında vermək məqsədi ilə ...

...Daha onları Seymur İslamzadə, İlkin Əlişov, İslam Abdullayev kimi çağırmayacaqlar. Kursant İslamzadə, kursant Əlişov, kursant Abdullayev kimi çağıracaqlar. İllərin o üzündən bu biçim çağırışa yol gələnlər ilk komandirlərinə təqdim olunur. Baxışların pıçıltısını sezmək çətin deyil: "Zabit olacağam, ana!..."

Bürkünü heç kim hiss eləmir...

Çünki bu gün gerçəkləşən istəklər istiyə bac verəsi deyil...

**Rəşid FAXRALI**
**"Azərbaycan Ordusu"**

---

# Qan yaddaşımız

*Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:*

*Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
*Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.*
*Laçın (17 may 1992-ci il) - 1835 kv.km.*
*Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
*Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.*
*Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.*
*Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.*
*Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.*
*Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur!**

# İdman

## Gənc qızların komandası dünya çempionatında 3-cü oldu




Xorvatiyanın Zaqreb şəhərində güləş üzrə gənclərin Dünya çempionatında qızların yarışları başa çatıb. Böyük məşqçi Aslan Ağayev və məşqçi Həsrət Məmmədyarovun rəhbərliyi altında qızlarımız 1 qızıl və 2 bürünc medal qazanmaqla Azərbaycan güləşində yeni tarix yazıblar. Bu, son 5 ildə gənc qızların qazandığı ən yüksək nəticədir. 72 kq çəkidə yarışan Səbirə Əliyeva bütün rəqiblərinə qalib gələrək qızıl medal qazandı.

Bu nəticə ilə yığmamız komanda hesabında Yaponiya və Rusiyadan sonra 3-cü pillədə qərarlaşıb.

## Hacı Əliyev FİLA-nın reytinq cədvəlində birinciliyini qoruyub

FILA

Beynəlxalq Güləş Federasiyası (FİLA) avqust ayı üçün sərbəst güləşçilərin reytinq siyahısını açıqlayıb. AzərTAc xəbər verirki, bu dəfəki siyahı Bakıda keçirilən ümum milli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş güləş üzrə beynəlxalq "Qızıl Qran-pri" turnirinin final mərhələsində güləşçilərin qazandığı nəticələr əsasında hazırlanıb. Sərbəst güləş üzrə reytinq siyahısına 14 pəhləvanımızın adı daxil edilib. Siyahıda Hacı Əliyev (1-ci, 61 kq), Əhmədnəbi Qvarzatilov (5-ci), Ruslan Dibirhacıyev (2-ci), Cəbrayıl Həsənov (2-ci, 74 kq), Xetaq Qazyumov (3-cü), Şərif Şərifov (6-cı, hər ikisi 97 kq), Əli İsayev (6-cı) və Cəmaləddin Məhəmmədov (7-ci) yer alıblar.

## Qurban Qurbanov: "Twente" ilə qarşılaşmalara ciddi hazırlaşacağıq



Ağdamın "Qarabağ" komandası UEFA Avropa Liqasının yarışlarının play-off mərhələsində Hollandiyanın "Twente" komandası ilə qarşılaşacaq. AzərTAc xəbər verir ki, "Qarabağ" klubunun baş məşqçisi Qurban Qurbanov "Twente"nin tanış komanda olduğunu deyib: "Fikrimcə, "Twente" qarşılaşa biləcəyimiz komandalar arasında ən güclülərdəndir. Problemlərimiz olsa da,"Twente" ilə qarşılaşmalara ciddi hazırlaşacağıq".

Qeyd edək ki, "Qarabağ" komandası 2009-cu ilin avqustunda Avropa Liqasının pley-off mərhələsində "Twente" ilə görüşüb. Pley-off mərhələsindəki oyunlar avqustun 21-də və 28-də keçiriləcək.

## Velosipedçimiz "Galichyna-2014" Qran-pri yarışlarında bürünc qazanıb



Ukraynanın Lvov şəhərində velosiped idmanının trek növü üzrə "Galichyna-2014" Qran-pri yarışları başlayıb. AzərTAc xəbər verir ki, yarışda Azərbaycan yığma komandasının üzvləri Sergey Omelçenko və Yelena Pavluxina da mübarizə aparırlar. Komandamız yarışın ilk günündə bir medal qazanıb. Qadınlar arasında 10 kilomter məsafəyə skretç yarışında çıxış edən Yelena Pavluxina yalnız Polşa və Ukrayna idmançılarından geri qalmaqla fəxri kürsünün üçüncü pilləsinə qalxıb və reytinqini daha 48 xal artırıb.

## Pəhləvanımızın adı "Ginnesin Rekordlar Kitabı"na düşməyə namizəd oldu



Qubalı pəhləvan Laçın Abdulhüseynovun adı "Ginnesin Rekordlar Kitabı"na düşməyə namizədlərin sırasına daxil edildi.

AzərTAc xəbər verir ki, pəhləvanımız bu uğura avqustun 3-də Gürcüstanın Dmanisi şəhərində yeni dünya rekordunun müəyyən edilməsi ilə əlaqədar keçirilən tədbirdə nail olub. O, Qafqaz Dünya Rekordları Federasiyasının təşkil etdiyi mərasimdə 2 nominasiyada yeni dünya rekordunu təzələməyi bacarıb.

Azərbaycan pəhləvanı qeyri-adi üsulla, göz, həm də hulqum nahiyəsində 33 kiloqram ağırlığı qaldırmaqla hamını təəccübləndirib. Bununla da Laçın Abdulhüseynov "Ginnesin Rekordlar Kitabı"na namizəd adını qazanıb. Bundan əvvəlki dünya rekordu 24 kiloqrama bərabər idi.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 264
Nüsxə 4570